FHN-nin Qəbələdə komanda-qərargah təlimləri keçirilib

Fövqəladə Hallar Nazirliyi Şimal-Qərb Regional Mərkəzi və nazirliyin regionda yerləşən digər qurumlarının, habelə aidiyyəti yerli icra hakimiyyəti orqanları əməkdaşlarının iştirakı ilə oktyabrın 12-13-də Qəbələ rayonunda komanda-qərargah təlimi keçirilib.



Komanda-qərargah təliminə fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev rəhbərlik edib. Komandir-rəis heyəti tərəfindən fövqəladə hal nəticəsində yaranmış vəziyyətin operativ qiymətləndirilməsi, idarəetmə və fəaliyyətin təşkili sahəsində təcrübəsinin daha da artırılması, şəxsi heyətin peşəkar vərdişlərinin gücləndirilməsi, aidiyyəti yerli icra hakimiyyəti orqanları və FHN-in qurumları arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi məqsədi daşıyan təlimə FHN-in 640 nəfərlik şəxsi heyəti və 110 ədəd texnikası cəlb olunub.

Kompleks təlimlər zamanı bir neçə şərti hadisə və qəzalar baş verib. Əvvəlcə Qəbələ rayonunun Soltannuxa kənd tam orta məktəbindəki şərti qəza zamanı şagirdlərin təxliyəsi, zəlzələ zamanı kənd sakinlərinin təxliyə edilərək çadırlara yerləşdirilməsi prosesi həyata keçirilib. Sonra qaz kəmərində partlayışın söndürülməsi və xəsarət alan şəxslərin ərazidən çıxarılması, onlara ilkin tibbi yardımın göstərilməsi əməliyyatı aparılıb. Həmçinin yol nəqliyyat hadisəsi zamanı xəsarət alan şəxslər xilasedicilər tərəfindən xilas olunub, meşə massivində geniş ərazini əhatə edən yanğının söndürülməsi üçün tədbirlər görülüb.

Bundan əlavə, çoxmərtəbəli yaşayış binasında baş verən şərti partlayışdan sonra insanların dağıntılar altından çıxarılması və yanğının söndürülməsi, kimyəvi təhlükəli qəza ocağının ləğv olunması və insanların təxliyəsi əməliyyatları həyata keçirilib. Təlim taktiki cəhətdən mürəkkəb ərazidə və əlverişsiz hava şəraitində keçirilib. Qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.

Təlimi Avstriyanın Federal Daxili İşlər Nazirliyinin yanğın üzrə ekspertləri və dağ alpinizmi üzrə mütəxəssisləri də izləyiblər.

Təlimdən sonra nazir müavini Etibar Mirzəyev avstriyalı mütəxəssislərlə görüşüb, komanda-qərargah təliminin yekunları ilə bağlı müşavirə keçirib.

Komanda-qərargah təlimində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişdir.

"Qəbələ".

İlkin Vəlizadə.

Oğullar əsgər gedir

14 oktyabr 2016-cı ildə Qəbələ şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda yenə böyük izdiham vardı. Qəbələ gənclərinin növbəti qrupu ordu sıralarına yola salınırdı. Öncə rayonun rəhbər işçiləri, ordu sıralarına yola salınan gənclər parkdakı ulu öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirdilər. Sonra parkın ortasındakı meydanda çağırışçıların, valideynlərin, rayon ictimaiyyəti nümayəndələriinin toplaşdığı tədbiri Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xilməti rayon şöbəsinin rəisi polkovnik leytenant Niyaz Məmmədov giriş nitqi ilə açıq elan etdi. Azərbaycan Respublikasının Dövlət Himini səsləndi. Rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, din xadimi Hacı Laçın çağırışçılara uğurlu yol arzuladılar. Ana Vətənə layiq xidmət dilədilər. Söz musiqiyə verildi.



Çağırışçılara Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsi tərəfindən qol saatları hədiyyə edildi.

Gənclər Azərbaycan Respublikasının Dövlət Bayrağına ehtiramlarını bildirib, Quranı Kərimin altından keçərək ordu sıralarına yola düşdülər.

Qüdrət SƏMƏDOV.

S. Umuyev.

«Qəbələ».

Rayon icra hakimiyyəti başçısının səyyar görüş-qəbulları

Soltannuxa kəndi– inkişafın bariz nümunəsi

Rayon icra hakimiyyəti başçısının qəsəbə və kəndlərimizin əhalisi ilə ənənəyə çevrilmiş növbəti görüş-qəbulu Soltannuxa kənd tam orta məktəbində oldu. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinləri ilə görüşdən əvvəl məktəbin yaxınlığında yerləşən uşaq bağçasında aparılan təmir-bərpa işləri ilə tanış olmuş və burada bağça uşaqları üçün yaradılan şəraitin daha da yaxşılaşdırılması üçün lazımi tövsiyə və tapşırıqlarını vermişdir.

Görüş-qəbulda kənd inzibati ərazi nümayəndəsi Mahir Hacıyev, Soltannuxa bələdiyyəsinin sədri Kamran Daşdəmirov, kənd ağsaqqallarının, ziyalıların, qadınların, gənclərin nümayəndələri iştirak etmişlər. Tədbirə həmişə olduğu kimi təhsil, səhiyyə, mədəniyyət və digər idarə və müəssisələrin, xidmət və ictimai təşkilatların rəhbərləri dəvət olunmuşdu.

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinlərini salamlamış, RİH tərəfindən təsdiq edilmiş qrafik əsasında yerlərdə əhali ilə keçirilən belə görüşlərin xüsusi əhəmiyyətini qeyd etmişdir. Hörmətli başçı daha sonra son illərdə Azərbaycanda, o cümlədən onun bölgələrində Prezident cənab İlham Əliyevin həyata keçirdiyi siyasət əsasında davam edən sürətli sosial-iqtisadi inkişafdan danışmış və bu gün bütün dünyada ölkəmizin nüfuzunun artmasını xüsusi olaraq qeyd etmişdir. Şübhəsiz ki, ölkədə davam edən bu inkişafdan Qəbələ rayonu və onun kəndləri də kənarda qalmamışdır. Demək olar ki, Soltannuxa kəndində görülən işlər qəsəbə və kəndlərimizdə aparılan sosial-iqtisadi inkişafın bariz bir nümunəsidir. Rayonun cənubunda istifadəyə verilən beynəlxalq hava limanından Qəbələ şəhərinə gələn müasir asfalt yol Soltannuxa kəndinin mərkəzindən keçir. Yol boyu sakinlərin rahatlığı üçün yaradılan şərait, bununla yanaşı kəndin elektrik enerjisi, təbii qazla fasiləsiz təchizatı, burada tam orta məktəbin, tibb məntəqəsinin, poçtun, uşaq bağçasının, kitabxananın, məişət, ticarət, rabitə xidməti obyektlərinin fəaliyyət göstərməsi ölkə başçısının regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar həyata keçirdiyi siyasətin nəticələridir. Artıq son vaxtlarda yeni yaradılan yaşayış massivlərinə də təbii qaz xətlərinin çəkilməsinə başlanılmışdır. Bu gün 600-ə qədər ailə təsərrüfatında, 2850 nəfərə qədər əhali yaşayan kənddə 20 artezian quyusu işləyir, əhali demək olar ki, tamamilə içməli su ilə təmin olunmuşdur. Bu kənd rayonda əmək qabiliyyətli əhalinin ən çox işlə təmin olduğu kəndlərdən biridir.

Kənd ziyalılarından Səhrab Babayev, Gülxar Həsənova və başqaları çıxış edərək barlı-bəhrəli, füsunkar təbii gözəlliyi ilə diqqəti cəlb edən Qəbələnin müstəqilliyimizin 25 ili ərzində çox sürətlə inkişaf etməsindən, bu gün regional və beynəlxalq tədbirlərə ev sahibliyi etməklə nəinki respublikamızda, hətta onun sərhədlərindən kənarda tanınmasından söhbət acmışlar. Bu inkişafı cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasətlə bağlayaraq kənd ziyalıları adından ona dərin minnətdarlıq bildirmişlər.

Çıxış edənlər Soltannuxa kəndinin inkişafından da söhbət açmış, rayon rəhbərliyinin bu sahədə kəndə göstərdiyi diqqət və qayğıya da toxunmuşlar. Lakin kənddə tam orta məktəbin 3 yardımçı binada fəaliyyət göstərdiyi, keçən əsrdə tikilmiş sinif otaqlarında lazımi şərait olmadığı da vurğulanmış, yeni, müasir məktəb binasının tikintitsinə ehtiyac olduğu diqqətə çatdırılmışdır.

Görüş-qəbulda son söz söyləyən cənab Səbuhi Abdullayev irəli sürülmüş təkliflərin icrası, həmçinin kənd sakinlərinin məşğulluğunun artırılması üçün müvafiq idarə və müəssisə rəhbərlərinə tapşırıqlar verilmiş, rayonda məktəb tikintilərinə ehtiyacı olan yaşayış məntəqələrində belə tikintilərin aparılması üçün artıq aidiyyatı orqanlar qarşısında məsələ qaldırıldığını bildirmişdir.

Nadir ATAKİŞİYEV.

İlkin Vəlizadə.

«Qəbələ».